1_Layout 1 12.01.2018 14:40 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 01 (517)

15 yanvar 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# PREZİDENT İLHAM ƏLİYEV 2018-ci İLİ ÖLKƏMİZDƏ "AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İLİ" ELAN ETDİ

***Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclasda giriş nitqi söyləyib.***

### Prezident İlham Əliyevin giriş nitqindən:

2017-ci ildə ölkəmiz sürətlə və uğurla inkişaf etmişdir. Həyatımızın bütün sahələrində əldə edilmiş nəticələr ölkəmizin ümumi inkişafına böyük töhfə vermişdir. Azərbaycan xalqı 2017-ci ildə də sabitlik və təhlükəsizlik şəraitində yaşamışdır.

Mən bu tezisi elə ilin əvvəlində bəyan etmişəm ki, 2017-ci il dərin iqtisadi islahatlar ili olmalıdır. Belə də oldu və bunu mötəbər beynəlxalq maliyyə qurumları da, mötəbər təşkilatlar da təsdiqləyir və qeyd edir. Həm Dünya Bankı, həm Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda gedən proseslərə yüksək qiymət verirlər, eyni zamanda, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə qərarlaşıb. Bu, çox böyük göstəricidir, ilk növbədə onu göstərir ki, hətta iqtisadi cəhətdən o qədər də asan olmayan ildə də biz inkişaf edirik.

2017-ci ildə valyuta ehtiyatlarımız 4,5 milyard dollar artmışdır və hazırda təxminən 42 milyard dollar təşkil edir. Ölkəmizin əhalisini nəzərə alaraq, hesab edirəm ki, adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə Azərbaycan dünya miqyasında ön yerlərdən birini tutur.

Ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub. Bu da çox gözəl göstəricidir. Onu göstərir ki, həm yerli və həm də xarici investorlar ölkəmizə vəsait qoymaqda maraqlıdırlar. Bu, eyni zamanda, qeyd etdiyim sabitliyin təzahürüdür.

2017-ci ildə 221 min yeni iş yeri açılmışdır ki, onların 177 mini daimi iş yeridir. Bu, çox böyük göstəricidir. Hesab edirəm ki, son illər ərzində açılan iş yerlərinin sayına görə bu, rekord göstəricidir.



Bizim prinsipial mövqeyimiz ədalətli mövqedir, beynəlxalq hüquqa əsaslanan mövqedir və daha çox beynəlxalq dəstək qazanan mövqedir. Bunu əks etdirən bir neçə önəmli hadisə olmuşdur. Onlardan biri Dağlıq Qarabağda separatist rejim tərəfindən keçirilmiş qanunsuz "referendum"un dünya ictimaiyyəti tərəfindən tanınmamasıdır. Həm qonşu ölkələr, həm Avropa ölkələri, Avropa İttifaqı, beynəlxalq təşkilatlar "referendum"un tanınmaması haqqında birmənalı şəkildə ciddi bəyanatlar vermişlər. Bu bəyanatlar bir daha onu göstərir ki, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu dəstək getdikcə daha da artır.

Ötən il Azərbaycanda İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bizim siyasi, diplomatik, iqtisadi uğurlarımıza bir uğur da əlavə edildi - idman uğurumuz. Bu Oyunlar ən yüksək səviyyədə keçirilmişdir. Azərbaycan bütün müsəlman aləmini qəbul etmişdir, öz qonaqpərvərliyini göstərmişdir və idmançılarımız da bizi sevindirmiş, Azərbaycan komanda hesabında birinci yerə layiq görülmüşdür.

İl ərzində həm Azərbaycanda, həm də xaricdə keçirilmiş bir çox tədbirlər göstərir ki, bu qərar - 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməyimiz İslam aləmində çox böyük dəstəyə və rəğbətə səbəb oldu.

**Maliyyə naziri Samir Şərifov, Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov və "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev məruzə ilə çıxış etdikdən sonra Prezident İlham Əliyev yekun nitq söyləyib.**



### Prezident İlham Əliyevin yekun nitqindən:

- Əminəm ki, bu il ölkə iqtisadiyyatı öz inkişaf yolu ilə gedəcək. İl ərzində bir çox önəmli layihələrin icrası nəzərdə tutulur. Əlbəttə, biz çalışmalıyıq ki, 2018-ci ildə makroiqtisadi vəziyyət sabit olsun. Mən şübhə etmirəm ki, belə də olacaq. Makroiqtisadi sabitlik hər bir ölkə üçün önəmli amildir. Keçən ilin son aylarında makroiqtisadi vəziyyət sabitləşmişdir, inflyasiyanın səviyyəsi aşağı idi. Əminəm ki, bu müsbət meyillər 2018-ci ildə daha da güclənəcək. Manatın məzənnəsi sabitdir. Qeyd etdiyim kimi, 6,2 milyard dollar müsbət saldomuz makroiqtisadi sabitlik üçün çox önəmli amildir.

Bizim iqtisadi potensialımız siyasi gücümüzü artırır, bölgədəki vəziyyətimizi möhkəmləndirir, imkan verir ki, ölkəmizin uzunmüddətli strategiyasını düzgün müəyyənləşdirək və onu icra edək. "Cənub Qaz Dəhlizi", Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, "Şimal-Cənub" layihələrinin və digər önəmli layihələrin maliyyələşməsində əlbəttə ki, bizim iqtisadi gücümüz əsas rol oynamışdır.

Qeyri-neft sektorunun inkişafı daim diqqət mərkəzindədir. Mən bu barədə dəfələrlə danışmışam və praktiki addımlar atılır. Sahibkarlara dövlət tərəfindən güzəştli kreditlərin verilməsi bu il davam etdiriləcək. Bu məqsədlər üçün 170 milyon manat kredit resursu təmin ediləcək. Sevindirici hal ondan ibarətdir ki, bu vəsait vaxtilə verilmiş və qaytarılmış kreditlər hesabına təkrar veriləcəkdir.

Bu yaxınlarda başladığımız özünüməşğulluq proqramının da uğurlu icrası gözlənilir. Bu məqsədlər üçün 35 milyon manat vəsait nəzərdə tutulub və bu, təqribən 7 min ailənin büdcəsinə böyük dəstək olacaq. Özünüməşğulluq proqramının çox böyük gələcəyi var və biz bu proqramın icrası ilə bağlı əlavə tədbirlər görəcəyik. Bu, işsizliyin aradan qaldırılması istiqamətində önəmli təşəbbüsdür.

Bu il yeni köçkün şəhərcikləri, qəsəbələri salınacaq. Bu il yeni mənzillərlə təmin ediləcək köçkünlərin sayı keçən illə müqayisədə təxminən iki dəfə artacaq. Əgər 2017-ci ildə 12 min insanı biz yeni mənzillərə, evlərə köçürmüşüksə, bu il ən azı 20 min köçkün yeni evlərə, mənzillərə köçürülməlidir. Bu rəqəm çox da ola bilər.

Bu il Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyəti üçün çox önəmli il olacaq. Demək olar ki, Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətinin birinci ili olacaq. Mən qeyd etmişəm ki, bu yola böyük maraq var və artıq Bakı-Tbilisi-Qars Avrasiyanın nəqliyyat xəritəsini təzələyib və Azərbaycan bu sahəyə öz töhfəsini verib.

Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azər-baycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq. Ancaq onu da qeyd etməliyəm ki, indiki Azərbaycan Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisə edilə bilməz. Çünki o vaxt çətinliklər də olub, müstəqilliyimiz tam imkan vermirdi ki, Azərbaycan müstəqil siyasət aparsın. İqtisadi çətinliklərimiz olub, torpaq itkilərimiz də olub və bizim tarixi şəhərimiz olan İrəvan Ermənistana verilmişdir. Ona görə, biz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini çox düzgün təhlil etməliyik. Bu müsbət və çətin məqamları gizlətməməliyik. Amma bütün çətinliklərə və əlbəttə ki, bizim üçün sağalmayan yara olan İrəvanın Ermənistana verilməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini Azərbaycan dövləti və xalqı yüksək qiymətləndirir.

Bunu nəzərə alaraq mən 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edirəm. İl ərzində həm ölkəmizdə, həm xaricdə bununla əlaqədar bir çox tədbirlər keçiriləcəkdir. Sağ olun.

# RESPUBLİKA VETERANLAR TƏŞKİLATININ SƏDR MÜAVİNİ DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ OLUB



Dekabrın 30-da Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Daxili Qoşunların Komandanlığını və şəxsi heyəti təbrik etmək məqsədilə qoşunların Baş İdarəsində olub.

C.Xəlilov Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovla görüşüb.

Qonağı səmimi salamlayan Daxili Qoşunların Komandanı Veteranlar Təşkilatının bütün üzvlərini 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib, onlara işlərində müvəffəqiyyətlər arzulayıb.

Milli Lider Heydər Əliyevin veteranları cəmiyyətimizin dəyərli üzvləri kimi xarakterizə etdiyini vurğulayan general-leytenant Ş.Məmmədov diqqətə çatdırıb ki, gənc nəslin vətənpərvər ruhda tərbiyəsində onların fəaliyyəti böyük əhəmiyyətə malikdir.

Qeyd olunub ki, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev veteranlara həmişə diqqət və qayğı göstərir, onların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə bir çox fərman və sərəncamlar imzalayır.

Bu gün Daxili Qoşunların veteranlarını birləşdirən ictimai təşkilat olaraq Daxili Qoşunların Veteranlar Şurasının da fəaliyyət göstərdiyini deyən cənab Komandan bildirib ki, veteranlarımız dövlətimizin hər bir çağırışına daim hazırdırlar.

Təşkilatın sədr müavini C.Xəlilov öz növbəsində qeyd edib ki, veteranlar həmişə Vətənimizə, dövlətçiliyimizə sadiqdirlər. Onların cəmiyyətimizdə birliyin və həmrəyliyin möhkəmləndirilməsinə töhfə verdiklərini söyləyən sədr müavini 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təşkilat adından Daxili Qoşunların Komandanlığını və şəxsi heyəti təbrik edib, xidmətdə yeni nailiyyətlər arzulayıb.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.

# QƏHRƏMANLIQ TARİXİMİZİN 20 YANVAR SƏHİFƏSİ

Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günü idi. Bu, uzun illər Sovet İmperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

İmperiya qoşunlarının yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə qanunsuz yeridilməsi nəticəsində paytaxtda və respublika rayonlarında ölkəmizin müstəqilliyi, suverenliyi uğrunda haqq səsini ucaldan əliyalın sadə vətəndaşlardan 132 nəfəri öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər isə qanunsuz həbs olundu.

Sovet hərbçiləri tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilib. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri də vardı.

20 Yanvar günündə xalqının səsinə hər kəsdən əvvəl səs verən Heydər Əliyev oldu. Milli Liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də oğlu, silahdaşı, o çətin günlərdə atasını bir an belə tək qoymayan İlham Əliyevlə birlikdə ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gəldi, təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. SSRİ-nin hələ hökm sürdüyü bir vaxtda onu və başçısını paytaxtın özündə tənqid etmək, sözün əsl mənasında, böyük hünər və cəsarət tələb edirdi. Ulu Öndər Heydər Əliyev və oğlu İlham Əliyev bununla, hər şeydən əvvəl, Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqelərini nümayiş etdirdilər. Xalqımızın Milli Lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi - özü də imperiyanın mərkəzində - Moskvada.



Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. 1990-cı il noyabrın 21-də böyük siyasi xadim Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etdi.

Milli Lider 20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirdi. Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ilk olaraq Şəhidlər Xiyabanını ziyarət etdi. O, elə yerindəcə tapşırıq verdi ki, qısa müddətdə bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz Ulu Öndərin sərəncamı ilə 20 Yanvar - Ümumxalq hüzn günü elan olundu.

Bakıda Vətən şəhidlərinə böyük ehtiramla xatirə kompleksi ucaldıldı. Şəhidlər Xiyabanı xalqımızın müqəddəs and yerinə, ziyarətgahına çevrildi.

2_Layout 1 12.01.2018 12:59 Page 1



# DAXİLİ QOŞUNLARIN BİR QRUP HƏRBİ QULLUQÇUSUNA YENİ MƏNZİLLƏRİN ORDERLƏRİ TƏQDİM EDİLİB

***Daha bir qayğının şahidi olduqlarını deyən hərbçi ailələrinin üzvləri belə xoşbəxt anlar yaşadıqlarına görə ölkə Prezidentinə dərin minnətdarlıqlarını bildiriblər***

Bu gün qurucusu Milli Liderimiz Heydər Əliyev olan müstəqil Azərbaycan dövləti sosial-iqtisadi gücünə görə dünyanın aparıcı ölkələri sırasındadır. Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mütərəqqi iqtisadi islahatlar vətəndaşlarımızın, o cümlədən hərbi qulluqçularımızın sosial rifah halının yüksəldilməsinə xidmət edir. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 20 ildən artıq qüsursuz xidmət edən, hal-hazırda həqiqi hərbi xidmətini davam etdirən 10 nəfər müharibə veteranına Gəncə şəhərində inşa edilmiş, hərtərəfli şəraitə malik mənzillərin verilməsi bunun əyani sübutudur. Bu münasibətlə Gəncə şəhərində Daxili Qoşunların hərbi qulluqçularına mənzillərin orderlərinin təqdimolunma mərasimi keçirilib.

Tədbirdə Daxili Qoşunlar Komandanının müavini - Maddi-texniki təminat İdarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov mənzillə təmin olunan hərbi qulluqçuları Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların Komandanlığı adından təbrik edib. Diqqətə çatdırılıb ki, Daxili Qoşunların şəxsi heyəti daim Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə əhatə olunub. Açılışında iştirak edilən, böyük zəhmət hesabına başa gələn yaşayış binası da bu qayğı və diqqətin daha bir nümunəsidir.

Hərbi qulluqçular adından çıxış edən kapitan Bəxtiyar Əliyev əlamətdar və unudulmaz bir gün yaşadıqlarını deyərək, ailə üzvlərinin hədsiz sevinc hissi keçirdiklərini bildirib. Qeyd edib ki, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin onlara göstərdiyi etimadı bundan sonra da fədakar xidmətləri ilə doğruldacaqlar.

Hərbçi ailələri adından çıxış edən Könül Əliyeva və Fatimə Əliyeva hər zaman ölkə Prezidentinin diqqətini hiss etdiklərini bildiriblər. Bu gün daha bir qayğının şahidi olduqlarını dilə gətirən hərbçi ailələrinin üzvləri belə xoşbəxt anlar yaşadıqlarına görə ölkə Prezidentinə bir daha dərin minnətdarlıqlarını ifadə ediblər.





Sonra mənzillərin orderləri Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularına təqdim edilib və xatirə şəkli çəkilib.

**Mətbuat xidməti**

# 2017-ci İLİN XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARINA GÖRƏ ƏN YAXŞI NƏTİCƏ ƏLDƏ EDƏN HƏRBİ HİSSƏ...

***Mühüm dövlət obyektlərinin mühafizəsini təmin edən 16076 saylı hərbi hissə xidməti-döyüş fəaliyyətini uğurla icra edir. Hərbi hissənin ötən ildə əldə etdiyi nailiyyətlər bunu deməyə əsas verir. Hərbi hissənin qazandığı böyük uğur Daxili Qoşunlar-da 2017-ci ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə ən yaxşı nəticə əldə etməsidir.***



Hərbi hissə komandiri polkovnik-leytenant Tural Novruzov əldə olunan müvəffəqiyyətin arxasında yüksək döyüş hazırlığının, mehriban, sağlam kollektivin, möhkəm hərbi intizamın, eyni zamanda, məqsədyönlü fəaliyyətin dayandığını bildirdi. Onun sözlərinə görə, il ərzində Daxili Qoşunların Komandanlığı tərəfindən verilən əmrlərin, direktivlərin, göstərişlərin, habelə təlimatların tələbləri şəxsi heyət tərəfindən dərindən öyrənilmiş, aidiyyəti üzrə xidmət və bölmələrə müvafiq tapşırıqlar veril-mişdir. Verilən hər bir tapşırığın icrası, eləcə də nəticəsi hissə komandanlığı tərəfindən daima ciddi nəzarətdə saxlanılmışdır. Ötən müddət ərzində hərbi qulluqçular öz funksional vəzifə-lərinə məsuliyyətlə yanaşmış, hər biri qarşıya qoyulmuş bütün növ tapşırıqların öhdəsindən layiqincə gəlmişdir. Döyüş tapşırığını yerinə yetirən zaman hər hansı bir nöqsan aşkarlandığı zaman isə dərhal səbəbləri araşdırılmış, təhlil edilmiş və təkrarlanmaması üçün bu istiqamətdə əməli tədbirlər həyata keçirilmişdir. Hərbi hissə komandiri vurğuladı ki, diqqət yetirilən əsas məsələlərdən biri də şəxsi heyətdə ruh yüksəkliyinin, mənəvi-psixoloji durumun daha da artırılması olmuşdur.

O, qazanılmış uğurun digər bir göstəricisinin hərbi qulluqçuların bilik və bacarıqlarının, o cümlədən peşə vərdişlərinin təkmilləşdirilməsi olduğunu bildirdi. Bu istiqamətdə əməli tədbirlərin görüldüyünü, keçirilən məşğələlərin keyfiyyətinin artırıldığını dedi. Nəzəri məşğələlərdə hərbi qulluqçulara Azərbaycan Respublikası qanunlarına, Konstitusiyasına, hərbi nizamnamələrin, o cümlədən digər qanunverici sənədlərin tələblərinə ciddi riayət edilməsi tədris olunmuşdur. Həmçinin, tabeçilikdə olanlara qarşı tələbkarlığın artırılması, onlara qayğı göstərməklə şəxsi nümunə olmaq keyfiyyətləri aşılanmışdır.






Qeyd edilməlidir ki, il ərzində qorunan obyektlərin mühafizəsi üzrə xidmət aparan saatdarların ayıq-sayıqlığı nəticəsində iki dəfə qadağan olunmuş əraziyə daxil olmaq istəyən şəxslərin qarşısı qanunla müəyyən edilmiş qaydada alınmış və müvafiq tədbirlər görülmüşdür.

Bir sözlə, "Müvəffəqiyyət qazanmaq bir son deyil, sadəcə yola davam etməkdir" fikri ilə fədakar xidmətini davam etdirən 16076 saylı hərbi hissə səylərini daha da artırmış və "2017-ci ilin ən yaxşısı" adını Daxili Qoşunların 25-ci ildönümünə yazdıra bilmişdir.

**baş leytenant T.Əlizadə**

# DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏLƏRİ ÖTƏN İL QARŞIYA QOYULMUŞ BÜTÜN TAPŞIRIQLARI MÜVƏFFƏQİYYƏTLƏ YERİNƏ YETİRİB

***Xidməti-döyüş fəaliyyətinin yekunlarına görə fərqlənmiş hərbi qulluqçularımız mükafatlandırılıblar***

Yanvarın 5-də Daxili Qoşunların Ali Hərbi Məktəbində və hərbi hissələrdə keçirilən tədbirlərdə 2017-ci ilin xidməti-döyüş fəaliyyətinə yekun vurulub, 2018-ci ildə qarşıda duran vəzifələr müəyyənləşdirilib. Tədbirlərdə Daxili Qoşunların Baş İdarəsinin zabitləri iştirak edib, xidməti-döyüş fəaliyyətinin yekunları və hərbi intizamın vəziyyəti haqqında məruzələr dinlənilib.

Qeyd edilib ki, ötən il ərzində hərbi hissələrin əsas fəaliyyəti Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin normativ-hüquqi aktlarının, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının əmr və göstərişlərinin, həmçinin aidiyyəti üzrə plan və proqramların tələblərindən irəli gələn vəzifələrin icrasına yönəlib.

İl ərzində müəyyən olunmuş vəzifələrin və xidməti-döyüş tapşırıqlarının tam həcmdə və layiqincə yerinə yetirilməsi, şəxsi heyətin peşə hazırlığının artırılması və təminatı, nümunəvi nizam-intizam prioritet məsələlərdən olub.

Daha sonra bildirilib ki, ötən il ərzində Daxili Qoşunların şəxsi heyəti polis əməkdaşları ilə birlikdə paytaxtımızda keçirilən bir sıra mötəbər idman yarışlarına və digər beynəlxalq tədbirlərə cəlb olunaraq, ictimai qaydanın qorunmasında və ictimai təhlükəsizliyin təmin edilməsində yaxından iştirak edib.

Bundan əlavə, Ali Hərbi Məktəbdə və hərbi hissələrdə qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsi, xəsarətalma hallarının və nizamnamədənkənar münasibətlərin qarşısının alınması, sağlam mənəvi-psixoloji mühitin yaranması tərbiyə işində diqqət mərkəzində saxlanılıb.

Məruzələrdə o da vurğulanıb ki, xidmət və bölmələrdə təşkilatçılıq, idarəçilik funksiyalarının təkmilləşdirilməsi davam etdirilib, hərbi intizamın möhkəmləndirilməsi üçün ciddi tədbirlər görülüb.

Ali Hərbi Məktəbdə və hərbi hissələrdə xidməti-döyüş fəaliyyətinin yekunlarına əsasən, vəzifələrinin icrasında fərqləndiklərinə görə bir qrup zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına mükafatlar təqdim olunub.

Tədbirin sonunda Daxili Qoşunların Baş İdarəsini təmsil edən nümayəndələr mükafatlandırılan hərbi qulluqçuları bir daha təbrik edərək, qazanılan nailiyyətlərin növbəti ildə də davam etdirilməsi üçün şəxsi heyətin əlindən gələni əsirgəməyəcəyinə, nizam-intizamı qoruyub saxlayacağına əminliklərini ifadə ediblər.

Əlavə olaraq, 2018-ci ildə qarşıda duran vəzifələrin tam və keyfiyyətlə yerinə yetirilməsi məqsədilə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunlar Komandanının tapşırıq və tövsiyələri çatdırılıb.

**baş leytenant X.Hacızadə**

# HƏRBİ QOSPİTALIN YARADILMASININ 25-ci İLDÖNÜMÜ TAMAM OLDU

***Bu münasibətlə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı 12576 saylı hərbi hissənin-hərbi qospitalın şəxsi heyətinə təbrik məktubu ünvanlayıb***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən, "Dərin özüllər" zavodunun Bakının Qaradağ rayonunda tikilən xəstəxana binası Daxili Qoşunların istifadəsinə verilib. Həmin tarixdən etibarən Hərbi Qospitalın təşkilinə başlanılıb. 1993-cü il dekabrın 27-də Hərbi Qospital döyüş bölgəsindən ilk yaralıları qəbul edib.

Daxili Qoşunların Hərbi Qospitalının yaradılmasında Daxili Qoşunların tibb xidməti rəisi olmuş mərhum polkovnik Siyavuş Rüstəmovun xidmətləri xüsusi qeyd edilməlidir.

Döyüş əməliyyatları getdiyi dövrdə Hərbi Qospitalın həkimləri, tibb bacıları və sanitarları yaralıların həyatının xilas edilməsi, onların sağalıb sıraya qayıtması üçün böyük fədakarlıq göstəriblər. Hərbi Qospital tərəfindən hazırlanmış feldşer, sanitar-təlimatçılar yaralılar və kontuziya almış hərbi qulluqçulara ilk tibbi yardım göstərərək, onları döyüş meydanından çıxarıb yaxınlıqdakı hərbi qospitallara çatdırırdılar.



Müharibə dövründən sonra Hərbi Qospitalın həyatında yeni mərhələ başlandı. Onun inkişafı, həkim və orta tibb heyəti kadrları ilə tam komplektləşdirilməsi, müalicə-profilaktik tədbirlərin daha effektiv həyata keçirilməsi üçün zəruri olan şərait və maddi bazanın genişləndirilməsi, tibbi maarifləndirmə işinin təşkili, fəaliyyət üzrə müvafiq normativ sənədlərin hazırlanması istiqamətində nəzərəçarpacaq addımlar atıldı.

Daxili Qoşunların Hərbi Qospitalı müxtəlif xəstəliklərin müalicəsində zəngin təcrübə toplamış tibb müəssisəsidir. Burada ayrı-ayrı vaxtlarda mürəkkəb cərrahiyyə əməliyyatları da aparılıb.

Bundan başqa, qospitalda həkim və orta tibb personalının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində müəyyən işlər görülüb. Ötən illər ərzində həkimlər Türkiyə Respublikasının Gülhanə Hərbi Tibb Akademiyasında (hazırda Tibb Elmləri Universiteti), Zərifə Əliyeva adına Göz Xəstəlikləri İnstitutunda (Milli Oftalmologiya Mərkəzi), respublikamızın digər tibb müəssisələrində ixtisasartırma kurslarına göndəriliblər. Həmçinin tibb bacıları Bakı şəhəri 2 saylı Tibb Kollecində və digər tibb ocaqlarında müvafiq tədris kursları keçirlər.

2005-ci ilin dekabr ayının 15-dən qospital dislokasiya yerini dəyişərək, öz fəaliyyətini yeni inşa və bərpa olunmuş binada davam etdirir. Hərbi Qospital yeni avadanlıq və müasir diaqnostika vasitələri ilə təchiz olunub. Hazırda qospitalın tərkibində Terapiya, Cərrahiyyə, Dəri-zöhrəvi, Əməliyyat və qanköçürmə, Reanimasiya, Funksional diaqnostika, Uro-nefrologiya, İnfeksiya, Ruhi-əsəb xəstəlikləri, Reabilitasiya və Qəbul şöbələri mövcuddur.

Bu gün dünya və respublika səhiyyəsində sürətlə gedən inkişafın, yeniliklərin şahidiyik. Bizim qospital da bu inkişaf və tərəqqidən geri qalmır.

****

Yanvarın 11-də Daxili Qoşunların Hərbi Qospitalının yaranmasının 25-ci ildönümü münasibətilə təntənəli mərasim keçirilib. Mərasimdə veteran həkimlər, respublikamızın səhiyyə müəssisələrindən həkim, professor heyəti və digər qonaqlar iştirak ediblər.

Tədbirin rəsmi hissəsi Milli Lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb. Dövlət Himni ifa olunub.

Hərbi qospitalı rəisi - 12576 saylı hərbi hissənin komandiri tibb xidməti polkovniki Şəmsəddin Heydərov tədbiri giriş sözü ilə açaraq, ötən illər ərzində tibbi personalın fədakar xidmətindən danışıb, onlara şərəfli xidmətlərində uğurlar arzulayıb.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının şəxsi heyətə ünvanladığı təbrikinin çatdırılması üçün Daxili Qoşunların Baş İdarəsində Tibb xidmətinin rəisi tibb xidməti polkovniki Rasim Qüdrətova söz verilib.

Hərbi qospitalın yarandığı ilk günlərdən tibb işçilərinin ön cəbhədə yüzlərlə yaralı döyüşçülərimizi ölümdən xilas etdiyi xatırladılan təbrik məktubunda bu gün Daxili Qoşunların şəxsi heyətinin sağlamlığının keşiyində müsəlləh əsgər kimi durmuş tibbi personalın vəzifələrinin öhdəsindən məharətlə gəldiyi vurğulanaraq, bundan sonra da qarşısına qoyulan tapşırıqları uğurla yerinə yetirəcəklərinə, hərbi bilik və bacarıqlarını, peşəkarlıq səviyyəsini artıracaqlarına, hərbi qulluqçulara yüksək dərəcədə tibbi xidmət göstərəcəklərinə əminlik ifadə edilib.



Təbrik məktubunda xüsusi olaraq vurğulanıb ki, hərbi hissənin şəxsi heyəti Milli Lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq, Vətən, dövlət və xalq qarşısında öz şərəfli borcunu düzgün anlayıb Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı doğruldacaq, bundan sonra da ləyaqətli xidmət nümunəsi göstərəcəkdir.

Hərbi Qospital rəisinin müalicə işləri üzrə müavini - tibb hissəsinin rəisi tibb xidməti polkovnik-leytenantı Şahin Şahmarov çıxışında Hərbi Qospitalın yaranması, keçdiyi döyüş yolu, formalaşması barədə danışıb və bu gün Qospitalın müasir tələblərə cavab verən tibb müəssisəsinə çevrildiyini vurğulayıb.

Mərasimdə iştirak edən bir sıra qonaqlar da çıxış edərək, yubiley münasibətilə şəxsi heyəti təbrik edib, arzu və tövsiyələrini çatdırıblar.a Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının və hərbi hissə komandirinin əmrlərinə əsasən, xidməti-vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirdiklərinə görə Hərbi Qospitalın bir qrup hərbi qulluqçusu mükafatlandırılıb.



Rəsmi hissə başa çatdıqdan sonra yubiley mərasimi Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi Orkestrinin solistlərinin konsert proqramı ilə davam etdirilib.

**Mətbuat xidməti**

3_Layout 1 12.01.2018 15:06 Page 1



## ŞƏHİDLƏRİMİZ

# DÖYÜŞ SINAQLARI QARŞISINDA MƏTİN DAYANDI...

***Azərbaycan Respublikası Prezidentinin 9 mart 2007-ci il tarixli, 2019 nömrəli Sərəncamı ilə əsgər Mustafayev Hüseyn Məhəmmədəli oğlu "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib (ölümündən sonra).***

Qarabağ müharibəsində hərbi qulluqçularımızın mətinlik və fədakarlıq göstərərək son nəfəslərinədək torpaqlarımızı müdafiə etmələri Vətənə sarsılmaz sədaqət nümunəsidir. Onlar Vətən yaşasın deyə, həyatlarını qurban verdilər. Vətəni qorumaq və yaşatmaq tarixən xalqımızın qeyrətli övladlarının üzərinə düşən missiya olub. Əcdadlarımızın ən müqəddəs mirası olan torpaqlarımızın toxunulmazlığı uğrunda şəhidlik zirvəsinə ucalmış Daxili Qoşunların yüzlərlə hərbi qulluqçusunu ehtiramla anaraq, həm bu gün xidmət edən şəxsi heyətə, həm də ictimaiyyətə tanıtmalıyıq.

Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının döyüş yolu maraqlı faktlarla zəngindir. Barıt qoxulu səngərlərdə müharibənin hər üzünü görmüş və od-alovdan keçmiş bu hərbi qulluqçularımız əsl fədai idilər.

Bu yazım ön cəbhədə atasının gözü qarşısında şəhid olmuş əsgər Mustafayev Hüseyn Məhəmmədəli oğluna həsr olunub. Onun haqqında xatirələrim ilk dəfə "Əsgər" qəzetinin 11 iyul 1993-cü il tarixli sayında öz əksini tapıb. "Ana balasından xəbər gözləyirdi..." adlanan həmin məqalə sonradan 1999-cu ildə işıq üzü görmüş, Əməkdar jurnalist, hazırda ehtiyatda olan polkovnik-leytenant Təranə Məmmədovanın müəllifi olduğu "Oğullar verir ki can, yaşasın Azərbaycan" kitabına da daxil edilib. Qeyd etdiyim məqalədə şəhidin tərcümeyi-halı barədə ətraflı məlumat yoxdur, şəkli də verilməyib. Çünki o məqalə ön cəbhədə, döyüşlər vaxtı yazılmışdı. Sonradan kitabda təkrar dərc edildikdə bioqrafik məlumatları toplamaq və şəklini tapmaq mümkün olmamışdı. Onu da nəzərə almaq lazımdır ki,



həmin kitab Daxili Qoşunların şəhid hərbi qulluqçuları haqqında ilk nəşrdir və onun hazırlanmasında "Əsgər" qəzetinin materiallarına və redaksiyanın fotoarxivinə istinad olunmuşdu. İllər sonra Hüseynin döyüş yolu haqqında yeni məqalə yazmağımın səbəbi həm tərcümeyi-halı, ailəsinə dair geniş məlumat toplamağımdan, sağlığında çəkilmiş, eləcə də məzarı və xatirə lövhəsi şəkillərinin redaksiyamıza göndərilməsindən irəli gəlir, həm də onun necə həlak olması faktı üzrə bəzi təfərrüatları bu günlərdə öyrənə bildim. Ona görə də bu döyüşçünün ön cəbhədə keçdiyi yolu bir daha işıqlandırmağa ehtiyac yarandı.

Əsgər Hüseyn Mustafayev 14 fevral 1974-cü ildə Ağdaş rayonunun Aşağı Ləki kəndində anadan olub. Doğma yurda, elin adət-ənənələrinə, halal zəhmətə möhkəm bağlılığı olan Mustafayevlər ailəsində 9 övlad dünyaya gəlib. Doğmalarının dediyinə görə, Hüseyn xasiyyətcə istiqanlı olması, xeyirxahlığı, ədəb-ərkanı ilə seçilib, valideynlərinə həmişə ehtiram göstərib. (Hüseyn haqqında ata və anasının xatirələrini dinləmək və yazmaq istəyirdim, qismət deyilmiş, onlar illər öncə vəfat ediblər - Y.A.). Çoxuşaqlı ailənin gün-güzəranına Hüseyn laqeyd yanaşmayıb, zəhmətkeş olub, atasına, qardaşlarına ev təsərrüfatında köməyini əsirgəməyib.

O, Aşağı Ləkidəki orta məktəbdə oxuyub. Müsbət şəxsi keyfiyyətlərinə görə müəllimlərinin və məktəb yoldaşlarının hörmətini qazanıb. Qeyd edim ki, valideynləri və müəllimləri onu vətənpərvər ruhda yetişdiriblər.

1992-ci ildə Hüseynin 18 yaşı tamam olduqda Ağdaş Rayon Hərbi Komissarlığı (Hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdaş Rayon İdarəsi) tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 7535 saylı hərbi hissəsində (1993-cü ilin yanvar ayından Daxili Qoşunların tabeliyindən çıxarılıb) hərbi xidmətə başlayıb. Bu hərbi hissədə əsgər üçün zəruri olan döyüş hazırlığına yiyələnib, hərbi andı da burada qəbul edib.

Həmin vaxt Dağlıq Qarabağ və ətraf rayonlarda respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlər gedirdi. Digər hərbi hissələrdən olduğu kimi, 7535 saylı hərbi hissədən də ön cəbhəyə şəxsi heyət göndərilirdi. Hüseyn xidmət etdiyi hərbi hissəyə təyinatı üzrə necə mühüm vəzifələrin həvalə olunduğunu düzgün dərk edir, komandirlərin tapşırıqlarını məsuliyyətlə yerinə yetirirdi. Ancaq o, Vətənin dar günündə vətənpərvər bir əsgər kimi ön cəbhədə olmağı daha vacib bilir, bununla bağlı komandirlərinə müraciət edirdi. Bir neçə ay sonra hərbi hissədən ön cəbhəyə göndərilən böyük bir qrup şəxsi heyətin arasında Hüseyn də vardı. Onun döyüş yolu Ağdam rayonu ərazisindən başlayıb. 67987 saylı hərbi hissənin tərkibində Ağdamın Əsgəran istiqamətindəki kəndlərinin və Fərrux yüksəkliyi ətrafındakı mövqelərimizin müdafiəsində dayanıb. Sonra Ağdərə bölgəsində Drımbon (Heyvalı), Kaçaqot (Yayıcı), Mehmanə, Canyataq və Gülyataq kəndləri uğrunda döyüşlərdə iştirak edib.



Ağdamın Qalayçılar və Papravənd kəndləri, habelə ətraf yüksəkliklərin müdafiəsi üzrə döyüşlərə cəlb olunub. Onun döyüşçü yoldaşı kimi qeyd etmək istəyirəm ki, Hüseyn qorxmaz, iradəli və əzmkar bir əsgər idi. Müharibənin bütün əzab-əziyyətinə dözümlə yanaşırdı. Döyüşlərdə qətiyyət göstərərək düşməni tələfata uğradırdı. Şiddətli atəş altında olsa da, özünü itirmirdi. Yaralanmış döyüşçü yoldaşlarını heç vaxt köməksiz qoymazdı. Ən təhlükəli mövqe olsa belə, şəhidlərin meyitlərinin çıxarılmasına tərəddüd etmədən can atırdı, "bunu etməsək, sonradan vicdan əzabı çəkərik" - deyirdi. "Şəhid olmaq şərəfdir, təki torpaqlarımızı geri qaytaraq" - söyləyirdi.

Hüseyn 5 aprel 1993-cü il tarixində şəhid olub. Həmin gün Ağdamın Papravənd kəndi yaxınlığındakı yüksəklikdə postlarımız və ətrafdakı yaşayış məntəqələri düşmənin müxtəlif çaplı silahlarından atəşə tutuldu. Cavab atəşi ilə düşmənə zərbə vurulduqdan sonra nisbi sakitlik yaransa da, ermənilər gün ərzində bir neçə dəfə minaatanlardan postlarımızı və arxa ərazini atəşə tutdular. Məhz həmin gün Hüseynin yanına atasının gəldiyi, onlar görüşüb ayrıldıqdan bir neçə dəqiqə sonra düşmənin atdığı minaatan mərmisinin partlayışı nəticəsində posta qayıdan Hüseynin ağır yaralanaraq həlak olduğu və ərazidən uzaqlaşmamış Məhəmmədəli kişinin partlayış səsinə geri dönüb oğlunun meyitini gördüyü xəbəri yayıldı. Əvvəlki məqaləmdə bu ağrı-acılı məqamın təfsilatı belə yazılıb. Ancaq hazırkı məqaləni yazarkən Ağdaş rayonu Aşağı Ləki kəndinin orta məktəb direktoru olmuş, şəhidlik mövzusuna çox həssas yanaşan ziyalı Qubad Kərimovla telefonla danışdım. Məlum oldu ki, 5 aprel 1993-cü il tarixində ön cəbhəyə Hüseynin atası tək getməyib. Belə ki, M.Mustafayevlə Ağdam rayonuna böyük oğlu Həmzə Mustafayev, Qubad Kərimov, daha iki nəfər həmkəndlisi də gediblər. O iki nəfərdən biri-Bahadur Hacıyev itkin düşmüş oğlunu axtarırmış, digəri - Baxşalı Baxşəliyev isə onları öz avtomobilində aparıb. Hüseynin yerləşdiyi mövqeyə Məhəmmədəli kişi və B.Baxşəliyev qalxıblar. Qubad müəllim, B.Hacıyev və H.Mustafayev arxa ərazidə qalıblar. Atası Hüseyn ilə görüşə bilib. Sonra atasını yola salmaq, habelə qardaşı və həmkəndliləri ilə görüşmək üçün Hüseyn yüksəklikdəki mövqedən onlarla birgə aşağı enib. Bu zaman yaxınlıqlarında qəflətən düşmən minaatanının mərmisi partlayıb. Hüseyn daldalanmağa, özünü qorumağa macal tapmayıb. Çoxsaylı qəlpələrdən ağır yaralanaraq atasının və həmkəndlisinin gözü qarşısında həlak olub.

Məhəmmədəli kişi ön cəbhəyə yola düşərkən nigaran ailəyə Hüseyndən bir xoş xəbər gətirəcəyini demişdi. O, kəndə, doğmalarının yanına qəddi əyilmiş, gözüyaşlı qayıtdı...

Hüseyn doğma yurdunda dəfn olunub. Oxuduğu orta məktəb onun adını daşıyır. Bu məsələdə Q.Kərimovun təqdirəlayiq əməyi olub. Kənd camaatı da bu təşəbbüsü dəstəkləyib. Orta məktəbdə şəhidin xatirə lövhəsi yaradılıb.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

***P.S. Məqalənin hazırlanması üçün sənədli materialların və fotoların çəkilib toplanmasında göstərdiyi köməkliyə görə Ağdaş rayonunun Aşağı Ləki kəndinin sakini, Qarabağ müharibəsi əlili, Azərbaycan Respublikası Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin üzvü, "Fədai" medalı ilə təltif olunmuş Əvəz Mütəllimova dərin minnətdarlığımı bildirirəm.***

# BU GÜNÜN ÇALIŞQAN KURSANTI SABAHIN BACARIQLI ZABİTİDİR

***Daxili Qoşunların xüsusi təyinatlı təhsil müəssisəsi olan Ali Hərbi Məktəbi Azərbaycan Respublikası Prezidentinin 25 fevral 2011-ci il tarixli Sərəncamı ilə Orta İxtisas Hərbi Məktəbinin bazasında yaradılıb. Artıq bir neçə ildir ki, Ali Hərbi Məktəbdə savadlı, vətənpərvər, yiyələndiyi hərbçi peşəsini ürəkdən sevən, sağlam mənəvi-psixoloji duruma malik hərbi qulluqçular formalaşdırılır. Belə gəncləri görmək həqiqətən də sevindirici və qürurvericidir.***

***Qəzetimizin müxtəlif saylarında davamlı olaraq burada təhsil alan, nümunəvi xidmətilə seçilən kursantlarımızı oxucularımıza tanıtmışıq. Bu dəfə tədris imtahanlarını uğurla başa vuran, nizam-intizamlı daha 3 kursantı təqdim edirik.***



Kursant **çavuş Rafiq Mikayılov** 1997-ci il dekabr ayının 12-də İmişli rayonunun Xəlifəli kəndində anadan olub. Orta təhsilini tamamladıqdan sonra 2015-ci ildə Daxili Qoşunların Ali Hərbi Məktəbinə imtahan verib və 427 balla qəbul olunub. Hazırda zabit hazırlayan tədris taborunda manqa komandiridir. Uşaqlıqdan hərbi sahəyə böyük marağı olan Rafiq bu peşənin bütün sirlərini dərindən öyrənir, öz biliklərini artırmaq üçün əzmlə çalışır. Göstərdiyi çalışqanlığın nəticəsidir ki, o, 2017-ci ilin yay imtahanlarını əlaçı olaraq başa vurub.

Məktəbdə həyata keçirilən tədris prosesi barədə məlumat verən çavuş R.Mikayılov qeyd etdi ki, burada yaradılan təhsil mühiti kursantların Daxili Qoşunlara layiqli zabit kimi formalaşmasında mühüm əhəmiyyətə malikdir. Belə ki, həftə ərzində sıra hazırlığı, Daxili Qoşunların taktiki hazırlığı, xüsusi taktiki hazırlıq, topoqrafiya, fiziki, atəş hazırlığı və digər fənlərdən məşğələlər keçirilir. Həftədə 3 saat olmaqla, güləş, yüngül atletika, şənbə günləri isə ümumi hazırlıq məşğələləri təşkil olunur. İctimai-siyasi hazırlıq məşğələlərində Daxili Qoşunların formalaşma tarixi, döyüş yolu, keçdiyi inkişaf mərhələləri barədə kursantlara geniş məlumat verilir. Kursantlar bütün tədris fənləri üzrə dərsliklərlə təmin olunurlar.

Kursant R.Mikayılov onu da bildirdi ki, nəzəri məşğələlərlə yanaşı, Xızı təlim mərkəzində praktiki məşğələlər də keçirilir və bütün kursantlar bu məşğələlərə böyük maraq göstərirlər. Bununla yanaşı, o, qoşunların 25031 saylı hərbi hissəsində çağırışçıların qəbulu zamanı tağım komandiri kimi 6 həftəlik praktiki məşğələ keçib və bunun növbəti kurslarda da davam etdirilməsi planlaşdırılır.

Ali Hərbi Məktəbin digər kursantı **Zaur Musazadə** də nizam-intizamı, savadı ilə fərqlənənlərdəndir. 1999-cu il martın 10-da Bakı şəhərində doğulub. Orta təhsilini 61 nömrəli məktəbdə alıb. 2016-cı ildə 485 balla Daxili Qoşunların Ali Hərbi Məktəbinə qəbul olunub. O, Ali Hərbi Məktəbdə fənlərin müasir tədris vasitələrindən istifadə olunmaqla keçirildiyini bildirdi.

Müəllim-kursant münasibətlərinə toxunan Zaur xüsusi olaraq vurğuladı ki, müəllim savadı, dünyagörüşü ilə yanaşı, həm də insani keyfiyyətləri ilə də kursantlara örnək olmalıdır: "Sevindirici haldır ki, müəllimlərimiz müxtəlif metodiki vasitələrdən istifadə etməklə tədris etdiyi fənni biz kursantlara sevdirməyi bacarır. Kursantların savadlı kadr kimi formalaşması üçün əllərindən gələni əsirgəmir, hətta bizə valideyn qayğısı ilə yanaşır, hər bir işimizdə yaxından köməklik göstərirlər".

Daxili Qoşunların zabiti olacağından qürur duyduğunu və bu adı daşımağın şərəfli olduğunu bildirən digər kursantımız **Mervan Qədirov** isə 1999-cu il iyul ayının 9-da Zaqatala rayonunda dünyaya göz açıb. Zaqatala rayonu Humanitar fənlər gimnaziyasında oxuyub. Burada 9-cu sinfi bitirdikdən sonra 2014-cü ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2017-ci ildə liseyi müvəffəqiyyətlə bitirən Mervan hazırda Ali Hərbi Məktəbimizdə təhsilini davam etdirir. Vətən qarşısında borcunu yerinə yetirməyin şərəf olduğunu deyən kursantımız hər bir gəncin hərbi xidmət dövründə üzərinə düşən məsuliyyəti dərk etməsinin vacib olduğunu söylədi.

Maraqlı və məzmunlu fikirlər səsləndirən kursant "Nümunəvi zabit necə olmalıdır?"-sualına isə belə cavab verdi: "Zabit ilk olaraq, savadlı olmalı, öz ixtisası üzrə biliklərini artırmalı, idarəetmə qabiliyyətinə malik olmalıdır. Tabeçiliyindəki şəxsi heyəti yaxşı tanımalı, hər zaman onlara qayğı ilə yanaşmalıdır. Zabit, eyni zamanda, qətiyyətli və məsuliyyətli olmalıdır".

Ali Hərbi Məktəbdə təhsil alan kursantlarımızın simasında fəxrlə qeyd etmək olar ki, Daxili Qoşunların şəxsi heyəti hər zaman olduğu kimi, bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcək, peşəkarlıq səviyyəsini daim artıracaqdır. Bu günün kursantları - gələcəyin zabitlərinin hərtərəfli hazırlığı bunu deməyə əsas verir.

**baş leytenant X.Hacızadə**

# İDMANÇI HƏRBİ QULLUQÇUMUZUN NÖVBƏTİ UĞURU...

***Daxili Qoşunların İdman Komandasında baş məşqçi-müəllim mayor Emil Hüseynov 1977-ci il avqust ayının 1-də Sumqayıt şəhərində anadan olub. 1994-1998-ci illərdə Azərbaycan Respublikası Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında "Tək mübarizəlik" ixtisası üzrə ali təhsil alıb.***




1999-cu ildən Daxili Qoşunların sıralarındadır. İlk olaraq, 16075 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmət edib. Daha sonra elə həmin hərbi hissənin komendant taqımında taqım komandiri və idman rəisi vəzifələrində xidmətini davam etdirib.

2009-cu ildə Daxili Qoşunların İdman Komandasında məşqçi-müəllim, 2015-ci ildən isə baş məşqçi-müəllimdir. Hərbi qulluqçumuz 8 yaşından idmanın cüdo, sambo növləri ilə məşğul olur. Atasının da güləşçi olması uşaq yaşlarından onda idmana böyük həvəs yaradıb. Sambo idman növü üzrə dəfələrlə Azərbaycan çempionu adını qazanıb. 1996-cı ildə Fransada cüdo üzrə keçirilən Avropa çempionatında bürünc medala layiq görülüb. 1997-ci ildə Bakı şəhərində sambo üzrə keçirilən Avropa çempionatında da 3-cü yeri tutub.

Mayor E.Hüseynov daxili işlər orqanları arasında keçirilən yarışlarda da hər zaman Daxili Qoşunları müvəffəqiyyətlə təmsil edərək uğurlar əldə edib. Hərbi qulluqçumuz növbəti qələbəsini ötən il dekabr ayının 28-də Bakıda Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə usta cüdoçular arasında keçirilən Respublika çempionatında qazanıb. Belə ki, o, 100 kq çəki dərəcəsində, ümumilikdə, dörd yarış keçirib və bütün rəqiblərini üstələyərək kürsünün ən yüksək zirvəsinə qalxıb.

Hərbi qulluqçumuzu qələbə münasibətilə təbrik edir, uğurlarının davamlı olmasını, ölkəmizin, eyni zamanda Daxili Qoşunların idman şərəfini daima qorumağı arzu edirik.

**baş leytenant X.Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR

### Yeni ixtisaslaşmış "Varta-Novator" zirehli maşını sınaqdan keçirilib



Ukrayna Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, zirehli maşın xüsusi təyinatlı bölmə üçün müasir texniki tələblər nəzərə alınmaqla, şassinin istifadə olunması, qəliz yolsuzluq şəraitində istifadəyə uyğunlaşdırılmaqla konstruksiya olunub.

"Novator" modeli özünün xələfi olan "Varta" ilə müqayisədə daha yığcam ölçülərə malikdir.

Qeyd edək ki, "Varta-Novator" ekipajın rahatlığını və təhlükəsizliyini təmin edən əlavə vasitələrlə təchiz olunub.

### Çin yeni mühəndis-istehkam avadanlığı hazırlayıb

Çinin CCTV televiziyasının açıqlamasına görə, minabasdıran mühəndis-istehkam avadanlığı prezi-



dent Si Tsinpinin Xalq Azadlıq Ordusunun Quru Qoşunlarını yoxlaması zamanı nümayiş etdirilib.

Lakin tırtıllı nəqliyyat vasitəsi üzərinə inteqrasiya olunan minabasdıran avadanlıq haqqında heç bir məlumat verilməyib.

**"ordu.az"**
**"azeridefence.com"**

4_Layout 1 12.01.2018 14:46 Page 1



## BAYRAM TƏDBİRLƏRİ DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏLƏRİNDƏ DƏ KEÇİRİLİB

***31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının təbrik məktubu şəxsi heyətə çatdırılıb***

1993-cü ildən başlayaraq hər il dekabr ayının 31-i bütün Azərbaycan xalqı tərəfindən böyük təntənə ilə qeyd edilir. Bu təqvim dünya xalqlarının həyatında yeni ilin gəlişi ilə bağlı olsa da, xalqımız üçün həm də Dünya Azərbaycanlılarının Həmrəyliyi günü ilə əlamətdardır.

Bütün həyatı boyu öz xalqının birliyi və işıqlı gələcəyi naminə çalışan Milli Lider Heydər Əliyev tərəfindən təməli qoyulan bu bayram tək respublikamızda deyil, dünyanın hər bir ölkəsində yaşayan azərbaycanlılar üçün ən dəyərli və əvəzolunmaz bayramlardan biridir. Dünya azərbaycanlıları bu möhtəşəm bayramı böyük coşqu ilə qeyd edir, milli həmrəylik, mənəvi dəyərlərimizə, tarixi irsimizə bağlılıq, mübarizlik, adət-ənənələrimizə sadiqlik kimi qiymətləndirirlər. Həmin gün soydaşlarımız bütün dünyaya müqəddəs bayrağımız altında birləşdiklərini, həmrəy, həmfikir olduqlarını bəyan edirlər.

Ənənəyə sadiq qalaraq, hər il olduğu kimi, bu dəfə də 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il şənliyi Daxili Qoşunların hərbi hissələrində böyük təmtəraqla qeyd olunub, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının təbrik məktubu şəxsi heyətə çatdırılıb.

Bayram günlərində Ali Hərbi Məktəbdə və hərbi hissələrdə şəxsi heyətlə ziyalıların görüşləri, bayram tədbirlərinə həsr olunmuş televiziya verilişlərinə baxış, mədəni yürüşlər, disputlar, mövzu axşamları, bilik yarışları (viktorinalar), stolüstü oyunlar, özfəaliyyət kollektivlərinin konsertləri keçirilib, hərbi qulluqçular üçün bayram süfrələri təşkil olunub.

Eyni zamanda, dislokasiya yerlərində şəhid hərbi qulluqçuların ailələri ziyarət edilib, yerli icra orqanları tərəfindən təşkil olunan mərasimlərdə və bayram şənliklərində şəxsi heyətin iştirakı təmin olunub.

**Mətbuat xidməti**

## HƏRBİ QULLUQÇULARIMIZIN UŞAQLARI ÜÇÜN BAYRAM TƏDBİRİ KEÇİRİLİB



Dekabr ayının 31-də Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin nəzdində fəaliyyət göstərən uşaq bağçasında hərbi qulluqçuların azyaşlı uşaqları üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib. Tədbirdə 25031 saylı hərbi hissənin komandiri polkovnik Əhliman İlmazov, hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Ramin Məmmədov, Daxili Qoşunların hərbi qulluqçularının ailə üzvləri iştirak ediblər.

Tədbir Dövlət Himninin ifası ilə başlayıb.

Tədbirdə çıxış edən polkovnik Ə.İlmazov azyaşlıları təbrik edərək bildirib ki, əsası Milli Lider Heydər Əliyev tərəfindən qoyulan Dünya Azərbaycanlılarının Həmrəyliyi gününü xalqımız hər il yüksək səviyyədə keçirir. Bu bayram təkcə Vətəndə yaşayan soydaşlarımızın deyil, həm də Azərbaycanın hüdudlarından kənarda olan vətəndaşlarımızın həmrəyliyini özündə əks etdirir. Bu baxımdan Dünya Azərbaycanlılarının Həmrəyliyi günü soydaşlarımız üçün xüsusi əhəmiyyət kəsb edir və ölkəmizdə olduğu kimi, respublikamızdan kənarda da böyük təntənə ilə qeyd olunur. Çıxışının sonunda hərbi hissə komandiri hər iki bayram münasibətilə hərbi qulluqçuları, onların ailə üzvlərini və gələcəyimiz olan uşaqları bir daha ürəkdən təbrik edib.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra bədii hissə başlayıb. Bayram sevincini coşqu ilə yaşayan körpələr Vətənə, yeni ilə aid şeirlər, rəngarəng rəqs nümunələrilə tədbir iştirakçılarının zövqünü oxşayıblar.

Uşaqlar üçün ən maraqlı və sevincli məqam isə həmişəki kimi, Şaxta babanın gəlişi olub. Qar qızla birgə Şaxta babanı səsləyən balacalar onun şənliyə gəlişini sürəkli alqışlarla qarşılayıblar. Bayram şənliyinin sonunda körpələrə hədiyyələr paylanıb və xatirə şəkli çəkilib.

**Mətbuat xidməti**

## QIŞ XƏSTƏLİKLƏRİNƏ QARŞI MÜBARİZƏ ÜSULLARI...

Qış fəslində, xüsusilə, əhalisi çox olan şəhərlərdə mövsümi dəyişikliklərdən əmələ gələn xəstəliklər çoxalır. Bu zaman insanlar xəstəliklərdən qorunma yolları axtarır, yaxud yoluxduğu xəstəlikdən daha tez sağalmağa çalışırlar.

Mütəxəssislərin bildirdiyinə görə, qış aylarında daha çox yuxarı tənəffüs yolları xəstəliklərinə rast gəlinir. Bura qrip və ya bakterial mənşəli kəskin respirator xəstəliklər, kəskin rinitlər, kəskin sinusitlər aiddir. Bu xəstəliklər hava-damcı yolu ilə yayılır. Bu il Azərbaycanda H3N2 virusu daha çox yayılıb və ağırlaşmalar verib. Ağırlaşmalardan əsasən pnevmoniya və otitlər (orta qulağın iltihabı) daha çox müşahidə edilib.

Qış xəstəliklərinin yayılması faizinə görə ikinci yerdə aşağı tənəffüs yollarının xəstəlikləri durur. Bura bronxit, pnevmoniya, plevriti aid etmək olar. Bununla yanaşı, qış aylarında sidik və sidikçıxarıcı yolların xəstəlikləri - sistit, pielit, pielonefrit yaranır. Yaxud, xroniki böyrək xəstəliyi olanlar, xroniki pielonifritdən əziyyət çəkənlər qış aylarında bu xəstəliklərin kəskinləşməsi ilə qarşılaşırlar. Uzun zaman soyuq şəraitdə çalışanlarda kəskin sistit və ya kəskin pielonefrit yarana bilər.

Qış xəstəlikləri arasında üçüncü yeri revmatoloji xəstəliklər, yəni oynaq xəstəlikləri tutur. Oynaq xəstəliyi olan insanlar özlərini daha çox quru və isti şəraitdə rahat hiss edirlər. Bir az soyuq və rütubətli havada revmatoloji xəstəliklər kəskinləşir. Revmatik qızdırma, reaktiv artritlər qış aylarında özünü daha çox büruzə verir.

Hormonal müalicə alan xəstələr də qış aylarında müəyyən problemlərlə qarşılaşırlar. Havaların soyuq keçməsi immun çatışmazlığından müalicə alan şəxslərin müxtəlif xəstəliklərə yoluxmasına səbəb olur. Ümumiyyətlə, düzgün qidalanmaq insan orqanizmini güclü edir. Qış fəslində xəstəliklərdən qorunmaq



üçün düzgün qidalanmaq əsas şərtdir. Ev şəraitində sarımsaqlı qatıq yemək məsləhətdir. Sarımsaq qış xəstəliklərinin qarşısını alır. Alma, limon, nar şirəsi, yumurta, ət, toyuq, pendir, südlə qidalanmaq önəmlidir. Bütün bunlarla yanaşı, balıq və balıq yağı da qəbul edilməlidir. Müxtəlif bitki çayı dəmləmələri də qış xəstəliklərindən qoruyur. Belə ki, çay dəmləyən zaman zəncəfil əlavə etmək qrip və soyuqdəyməni daha tez sağaldır. İtburnu, şam fıstığı, ada çayı dəmləmələri badamcıq iltihabı, soyuqdəymə, ağciyər xəstəlikləri zamanı çox xeyirlidir.

Qış aylarında xəstəliklərə yoluxmamaq üçün edilən ən böyük səhvlərdən biri çox qalın geyinməkdir. Çox zaman valideynlər elə düşünürlər ki, övladını qalın geyindirsə, ona soyuq olmayacaq və uşaq xəstələnməyəcək. Uşaqları qalın geyindirmək, ağzını şərflə möhkəm bağlamaq, üst-üstə geyindirmək olmaz. Uşaq tam nəfəs ala bilməlidir. Uşağa izah etmək lazımdır ki, nəfəsi burnu ilə alıb, ağzı ilə buraxsın. Şərfi ağıza küləkli havalarda bağlamaq olar.

Qış aylarında edilən səhvlərdən biri də evlərin çox isidilməsidir. Bəzi pasientlər etiraf edirlər ki, evlərini hətta 30 dərəcəyə qədər qızdırırlar. Bu da çöldəki hərarətlə böyük fərq yaradır. Bu zaman insan evdən çölə çıxanda, çöldəki hava -1 dərəcədirsə, bu zaman kəskin temperatur fərqi yaranır. Temperatur fərqi yaşayan insanlar daha çox xəstələnirlər. Qış aylarında otaq temperaturu +19-22 dərəcə olmalıdır. Uşaq otaqlarında isə +23 dərəcə olmalıdır. Temperatur fərqi çox olduğu zaman bədən stresə girir. Stress qədər orqanizmi yoran ikinci bir xəstəlik yoxdur. Qış xəstəliklərindən qorunmaq üçün stressdən də uzaq olmaq lazımdır. Stress orqanizmin müqavimətini zədələyir və immun sistemini zəiflədir.

Yanınızda antiseptik salfetlər gəzdirin. Salfetlərə bir neçə damcı spirt əlavə edib çantanıza qoyun. İctimai nəqliyyatdan istifadə etdikdən sonra və ya xəstə insanla görüşdükdən sonra əllərinizi mütləq bu salfetlərlə silin. Bu salfetlərdən bağçaya və ya məktəbə gedən uşaqlarınızın çantasına qoymağınız onları mikrob və bakteriyalardan qoruyar. Həkimlər məsləhət görürlər ki, əgər ətrafımızda xəstə insanlar varsa, tibbi maskalardan istifadə etmək lazımdır. Hava necə soyuq olsa da, mütləq açıq havada olmağa, günəş vannası qəbul etməyə çalışın. Bu, həm uşaqlar, həm də böyüklər üçün çox önəmlidir.

Mütəxəssislər qış xəstəliklərindən qorunmaq üçün aşağıdakı tövsiyələri verirlər:

**1.** Bol maye qəbul etmək;
**2.** Meyvə-tərəvəz yemək;
**3.** Normal yuxu rejiminə əməl etmək;
**4.** Stressdən uzaq olmaq;
**5.** Xəstə insanlardan uzaq olmaq;
**6.** Gigiyena qaydalarına əməl etmək;
**7.** Təmiz hava qəbul etmək.
**8.** Toplu yaşanılan bağlı mühitlərdən uzaq dayanmaq;
**9.** Xəstəliyə tutulan kəslərlə yaxın təmasa keçməmək;
**10.** Mövsümə uyğun geyinin. Paltarlarınız nə çox nazik, nə də çox qalın olmalı;
**11.** Bədən müqavimətini artırmaq məqsədilə nizamlı idman etmək.

***VƏTƏNİM AZƏRBAYCAN***

## ƏN QƏDİM ZAMANLARDAN İSLAMAQƏDƏRKİ DÖVRDƏ AZƏRBAYCANDA MEMARLIĞIN İNKİŞAFI

***Bəşər svilizasiyasının ilkin meydana gəlmiş ərazilərindən biri də Azərbaycandır. İlk növbədə buna səbəb insanların yaşaması üçün mülayim və münasib təbii şərait olmuşdur. Ərazidə aparılmış arxeoloji qazıntıların nəticələri göstərmişdir ki, Azərbaycanda yaşamış qədim insanlar tarix boyu şərəfli yaradıcılıq yolu keçərək çoxsaylı mədəniyyət əsərləri yaratmışlar və onlardan biri də memarlıqdır.***

Memarlıq tarixdir - insanlıq tarixi. Bu tarixin başlanğıcı ibtidai insanların yaşadığı təbii mağaralardan başlayır. Azərbaycan ərazisində belə mağaraların sayı olduqca çoxdur. Böyük və Kiçik Qafqaz dağlarının ətəklərində, Talış dağlarında, Naxçıvan Muxtar Respublikasında, Zəngilan, Kəlbəcər, Gədəbəy, Xanlar, Şamaxı rayonlarında tapılmış mağaralar və nəhayət Füzuli rayonu ərazisində aşkar edilmiş Azıx mağarası buna misal ola bilər. Belə mağaralarda aparılmış tədqiqatlar göstərir ki, burada yaşamış ibtidai insanlar 1,5 milyon il öncə, yaşayışlarını mağaralardakı şəraitə uyğunlaşdırmaq məcburiyyətində qalsalar da, sonralar şüurun inkişafı və bəzi əmək və inşaat alətlərinin yaranması ilə əlaqədar olaraq onlar yaşadıqları təbii mağaraları öz yaşayış tərzlərinə uyğunlaşdırmağa çalışmışlar. Azərbaycan ərazisində süni mağaralara Böyük Qafqaz dağlarının cənub-şərq ətəklərində, Kiçik Qafqaz dağlarında, Qubadlı rayonunda Bərguşad, Əkərə çayları vadilərində, Şirvan regionunda Mərəzə,



Sündi və Dərəkənd yaxınlığında, eləcə də cənub əyalətlərində qədim Manna və Midiya dövlətlərinə mənsub olmuş ərazilərdə də təsadüf edilmişdir. Daş hörgüsünün meydana çıxması nəticəsində yeni tipli qazma və yarımqazma binalar inşa edilməyə başladı. Belə binalar adətən dağların və yamacların döşündə inşa olunmuşdur. Hələ hörgü işinə o qədər mükəmməl yiyələnməyən və mənzili lazımi səviyyədə qızdırmaq imkanına malik olmayan ibtidai insanlar evlərinin yarı hissəsini yeraltı küyl şəkildə quraşdıraraq yalnız onun yer üstünə çıxan hissəsini - dəhlizini təbii daşlarla eyvan şəkildə hörüb özlərini dəyişən təbiətin isti-soyuğundan qorumuşdur. Elmi mənbələrdə belə binaların hələ Midiya dövründən çox-çox öncə meydana çıxması və Midiya dövründə geniş yayıldığı qeyd olunur.

Tədricən mənzil divarlarının daş hörgü ilə əvəz olunması və insanların bu hörgü ilə bağlı inşaat mədəniyyətinin təkmilləşməsi binaların qazma və yarımqazma formasından yerüstü inşasına gətirib çıxarmışdır.

Öz başlanğıcını süni mağaralardan almış belə binalar uzun bir tarixi inkişaf prosesi keçmiş və memarlıq tarixində "Qaradan" adı ilə məşhurlaşmışdır.

Tarixi məlumatlara görə, Azərbaycanda qaradanlardan XX yüzilliyin əvvəllərinə qədər istifadə edilmişdir.

Qobustanda aşkar edilmiş ən qədim yaşayış yerləri (mağaralar, müxtəlif primitiv sığınacaqlar və s.) ilə yanaşı, meqalit memarlıq abidələri-kromlexlər, menhirlər (çoban daşı), dolmenlər və siklop tikililəri geniş yayılmışdı.



Hündür daşlardan quraşdırılmış bu qurğular el arasında "qalaça", yaxud "hörükdaş" adlanır. Naxçıvan şəhərinin yaxınlığındakı Çalxanqala (Tunc dövrü) və Arpaçay sahilindəki Qaratəpə divarındakı Oğlanqala (e.ə. II-I minilliklər) müdafiə tikililəri siklop tikililərə aid edilir. Güney Azərbaycanın ərazisində, Araz yaxınlığında da qala tikililəri (Bastam, Danalı, Qalaoğlu və s.) aşkar edilmişdir.

Azərbaycan ərazisində Manna dövlətinin təşəkkülü (e.ə. IX-VII yüzillər), daha sonralar güneydə Atropatena dövlətinin yaranması ilə bağlı şəhərlər əmələ gəlmiş, müdafiə tikililəri, əzəmətli qala divarları inşa edilmişdi. Həmin dövrün memarlıq qurğularından yeganə dini tikili olan od mehrabları (müqəddəs odun saxlandığı yer) dövrümüzədək gəlib çatmışdır.

Qafqaz Albaniyası dövründə (e.ə. IV yüzil - eramızın VII yüzili) şəhərsalma sahəsində mühüm addımlar atılmışdır. Qəbələ şəhərinin möhkəm qala divarları, saxsı borularından çəkilmiş su kəməri, Dəmirqapı (Dərbənd) keçidində daşdan tikilmiş müdafiə sistemi ("uzun divarlar"), Çıraqqala (VI yüzil), Ləkit kəndindəki dairəvi xristian məbədi (V-VI yüzillər), Qum kəndindəki bazilika (təqribən VI yüzil), Mingəçevirdəki məbədlər kompleksi (VII yüzil) və s. bu şəhərsalma mədəniyyətinin yüksək səviyyəsini göstərir. Sasanilər dövrü memarlıq abidələrindən müdafiə tikililəri özəllikcə diqqəti cəlb edir. Xəzər dənizinin sahilindən başlayaraq, Babadağın ətəyində qurtaran Gilgilçay səddi və indiki Dəvəçi rayonu ərazisində yerləşən Beşbarmaq dağından başlayıb, Xəzərin sahillərinə qədər uzanan Beşbarmaq səddi Azərbaycanda istehkam tikililərinin inkişafı haqqında geniş təsəvvür yaradır.



Ərəb istilasından (VII yüzil) sonra Azərbaycanda islam dininin yayılması ilə bağlı memarlığın da inkişaf yönü dəyişdi. Memarlıqda yeni tipli binaların - məscid, mədrəsə, türbə, karvansara və s. tikilməsi əsas xətt oldu. Bərdə, Ərdəbil, Marağa, Urmiya, Şamaxı, Şəmkur (Şəmkir), Şabran, Beyləqan, Gəncə və Naxçıvan bu dövrdə Azərbaycanın ən önəmli şəhərləri idi. Şamaxı, Gəncə və Beyləqanın böyük şəhərlərə çevrilməsi də məhz bu dövrə aiddir.

Bu dövrdə islam dini ilə bağlı tikililərlə yanaşı, Qafqaz Albaniyasının bəzi əyalətlərində xristian məbədləri, müdafiə istehkamları inşa edilirdi. Bunlardan indiki İsmayıllı rayonu ərazisində salınmış cavanşir qalası (təqribən VII yüzil) və Qazax rayonunun Yuxarı Əskipara kəndi yaxınlığındakı qala kompleksi (V-VIII yüzillər) diqqəti özəlliklə cəlb edir.

Ümumiyyətlə, islamdan öncəki və sonrakı dövrlərdə Azərbaycan ərazisində inşa edilmiş alban tikililəri memarlığın inkişafında önəmli rol oynamışdır. Bu abidələrdən Zaqatala rayonundakı Paşan və Muxax kəndlərində IV-V yüzillərə aid tikili qalıqları, Şəki rayonunun Böyük Gəldək kəndində Govurqala (VI yüzil), Qəbələ rayonunun Böyük Əmirli kəndində (IV-VIII yüzil) alban məbədləri, Oğuz şəhərində alban kilsəsi (orta əsrlər), Dağlıq Qarabağın Xocavənd rayonunun Qarakənd kəndində alban kilsəsi (I yüzil), Sos kəndində (IV yüzil), İatsi kəndində (V, VII və VIII yüzillərə aid olan 4 məbəd), Taqaverd kəndində (675), Güneyçartar kəndində (1236) alban məbədləri, Ağdərə bölgəsinin Aterk (V yüzil), Kolatağ (614), Qoçoqot (672, 698), keçmiş Dostahir (713), Qasapet (718), Çıldıran (XII yüzil) kəndlərində, eləcə də Yuxarı Qarabağın başqa bölgələrindəki Susanlıq (IV-VI yüzillər), Vanq (IX yüzil), Traxtik (1094), Tsakuri (1131), Məmmədadzor (1147), Tuğ (1197), Şuşikənd (905), Çanaqçı (1065 və 1100), Xaçmaç (1100), Xantsk (1122), Xndzristan (1202) kəndlərində alban məbədləri dövrümüzədək mühafizə olunmuşdur.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: X.Hacızadə**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonu : (012) 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**